

Aida Eyvazlı

(əvvəli ötən sayımızda)

# “Qırmızı imperiyaya qarşı Qırmızı şaman”

***Platon Oyunskinin “Qırmızı Şaman” əsərini elə 1928-ci ildə Pyotr Çernıx Yakutskinin tərcüməsində Maksim Qorkiyə təqdim edir. Maksim Qorkinin hazırladığı milli almanaxda Oyunskinin “Qırmızı Şaman” əsəri də çap edilir. Bundan sonra Saxa (Yakut) ədəbiyyatından sovet məkanındakı insanlar da xəbər tutur.***

Türksoylu xalqlara qarşı tabuların olduğu bir vaxtda, ali partiya işçisinin milli düşüncəni ehtiva edən “Qırmızı şaman” adlı kitabının işıq üzü görməsi toplumda maraq doğurmuşdu; lakin bunun qorxuları da vardı... Bununla belə, öz xalqının ruhunu, milli dəyərlərini folklorunu dastan şəklində üzə çıxarması Platon Sleptsovu çox məşhurlaşdırır. Bu məşhurluqdan qürur duyan Platon, öz soyadını da dəyişərək “Oyunski” yazdırır. “Qırmızı Oktyabr ideyaları”-nın tüğyan etdiyi bir dövrdə “Qırmızı Şaman” əsəri bolşeviklərə öz ideyalarını təbliğ etmək üçün əlverişli kimi görünsə də, indiki müasir dövrümüzdə əsəri oxuyanda belə nəticəyə gəlirsən ki, “Qırmızı Şaman” əsəri ilə Oyunski elə Qırmızı Oktyabra, sovet rejiminə qarşı hiddətini sətiraltı eyhamlarla yazıya köçürüb.



Çünki Oyunski elə əslində Şaman idi. Reas Alekseyeviç Kulakovskiy öz xatirələrində yazırdı ki, Platon artıq ədəbiyyatçı kimi məşhur olanda doğma ata yurduna qonaq gələn yazıçı ilə görüşə gedir. Birdən evdən kamlan oxuyan şaman səsi gəlir. Öz taleyini yandırmasın deyə, o elə həyətdən geri qayıdır. Bu faktın özü Oyunskinin böyük şaman olduğu barədə bilgi verir.

Ömrünün qalan 10 ilində isə o, “Bilgə Süleyman”, “Ulu Kudansa”, “Makedoniyalı İsgəndər” əsərlərini qələmə alır. 1926-cı ildə onun məşhurluğu başına bəla olur – Mərkəzi Komitənin qərarı ilə, milli ideyaları yaydığına görə Yakutiya Muxtar Sovet Sosialist Respublikasının İcraiyyə Komitəsinin sədri vəzifəsindən gedir. Həm rus, həm yakut dilini gözəl bilən P.Oyunskini az sonra – 1928-ci il yanvar ayının 6-da, Yakutiya MSSP-nin Təhsil və səhiyyə məsələləri üzrə Xalq komissarı təyin edirlər. Oyunski oturduğu bu yüksək kürsüdə də xalqının taleyinə biganə qala bilmir. “Qırmızı Şaman”da yazdığı ağrılar onun qəlbinin gizlin dərdləri idi. Məlum vəzifədə işlədiyi iki il ərzində təhsil və səhiyyə sahəsində böyük islahatlar aparır, mərkəzi hakimiyyətin unutdurmaq istədiyi saxa (yakut) dilini yenidən məktəblərə və dərsliklərə qaytarır. Xalq içərisində savadsızlığı aradan qaldırmaq üçün 223 nəfər həmyerlisini mərkəzi təhsil sistemlərində oxumağa göndərir. Elə həmin il, Oyunskinin cəhdlərinə görə İrkutskda daha bir pedaqoji universitetdə yakut dilində bölmə yaradılır.

***1927-ci il Yakutiya xalqı üçün ölüm-qalım mübarizəsi ili olur. Bu illərdə o “Böyük 100 illiyin planı” adlı əsər yazır. Fikirləşmək olar ki, Yeni Olonxo olan bu əsərdə gələcəkdən, arzulardan, xalqın görə biləcəyi işlərdən bəhs edilir: “Böyük 100 illiyin planı” yeni dünya, yeni respublika planıdır. Bu günümüzdən baxanda, həmin əsəri oxuyarkən bir daha Oyunskinin 100 il sonranı gördüyünü, hədəflərini necə uzaqlara tutduğunu anlamış olursan.***

***1935-ci ildə onun təşəbbüsü ilə Yakutiya MSSR-də Elmi Tədqiqat Milli Dil İnstitutu yaradılır.***

***

...1937-ci ilin sərt yelləri Sibirdə də əsirdi. Artıq yavaş-yavaş Platon Oyunskinin silahdaşları və əqidədaşları bir-bir xalq düşməni elan olunur, sorğusuz-sualsız edama və ya sürgünə göndərilirdi. ***Kökdən şaman olan Platon Oyunski bilirdi ki, bu aqibət onu da gözləyir. NKVD-nin müstəntiqləri 1938-ci ildə “Böyük 100 illiyin planı” adlı ədəbi məqalədə burjua-milli təfəkkürünə xidmət edən fikirlər “tapır” və belə qərara gəlirlər ki, əsər Sovet sisteminə qarşı ən müxalif əsərdir.*** Dövrünün acı həqiqətlərini bilən, onu əsərlərində həkk edib tarixə və xalqına yadigar qoyan Oyunski yazırdı: “Həqiqətləri öncədən bilmək mənim fəlakətimdir...”

***...1937-ci ilin sərt yelləri Sibirdə də əsirdi. Artıq yavaş-yavaş Platon Oyunskinin silahdaşları və əqidədaşları bir-bir xalq düşməni elan olunur, sorğusuz-sualsız edama və ya sürgünə göndərilirdi. Kökdən şaman olan Platon Oyunski bilirdi ki, bu aqibət onu da gözləyir. NKVD-nin müstəntiqləri 1938-ci ildə “Böyük 100 illiyin planı” adlı ədəbi məqalədə burjua-milli təfəkkürünə xidmət edən fikirlər “tapır” və belə qərara gəlirlər ki, əsər Sovet sisteminə qarşı ən müxalif əsərdir. Dövrünün acı həqiqətlərini bilən, onu əsərlərində həkk edib tarixə və xalqına yadigar qoyan Oyunski yazırdı: “Həqiqətləri öncədən bilmək mənim fəlakətimdir...”***

Ruhən şaman olan Platon Oyunski əslində “Ulu Kudansa” və digər əsərlərində zalım və qaniçən qəhrəmanların obrazını yaratmaqla Stalinin obrazının cizgilərini çəkirdi. Ona görə də, onun qəhrəmanları gələcəyə inanır, onları daha gözəl gün gözlədiyini deyirdi.

O çox gözəl bilirdi ki, Stalinin dar ağacından asılacağı gün uzaqda deyil.

3 fevral 1938-ci il, İrkutsk şəhəri. Şəhərin mərkəzindəki mehmanxanada qonaq olan Oyunski artıq hiss etmişdi ki, bu gün, NKVD-nin adamları onun da arxasınca gələcək. Həqiqətən də, həmin gün, axşam saat 5 radələrində onun arxasınca qara eynəkli çekistlər gəlir. Platon Oyunskinin həbsi SSRİ Ali Sovetinin və Baş Prokurorluğunun sanksiyası olmadan həyata keçirilir. 3 iyun 1938-ci ildə isə Oyunskinin ailəsi belə bir məktub alır: “Platon Oyunski xalq düşmənidir”.

1 il Moskvadakı Lubyanka həbsxanasında saxlanılandan sonra onu Yakutiyaya etap edirlər. Platon Oyunski ilə həmin illərdə təmasda olan çağdaşı Nikolay Suburuskoy sonralar yazacaqdı: “Platon deyirdi ki, mənimlə aparılan sual-cavab və dindirmələrin necə olduğunu ancaq başına gəlnlər bilər”. Onu Moskvadan Yakutiyaya təkadamlıq kamerada ay yarıma gətirib çıxarırlar. Deyilənlərə görə, Platon Oyunski Yakutiyadakı həbsxanada 18 martdan 13 dekabra qədər saxlanılır. Burada ağır xəstəlik keçirir. Sonradan onu görən olmur. Oyunskinin hansı şəraitdə öldüyü və ya öldürüldüyü bu gün də saxa (yakut) xalqı üçün sirr olaraq qalıb...

Oyunski “Qırmızı Şaman” əsərini “Qırmızı Oktyabr”ın “çiçəkləndiyi” illərdə yazmışdı. O, “Qırmızı” sözü ilə sovet hakimiyyətinin ideoloqlarını aldada bilməmişdi; lakin bir neçə il keçəndən sonra Oyunskinin öz xalqının ağrı-acılarını qələmə aldığını, insanlığa çağırış etdiyini – “Qırmızı Şaman”ın əslində “Qırmızı Oktyabr”a, sovet adlı quruluşa etiraz aktı olaraq yazıldığını anladılar. Və böyük Oyunski xalqını sevdiyinə, yakutları azadlığa səslədiyinə görə canını qurban verdi. – Sovet ideologiyası qırmızı rəngi sevsə də, qırmızı sözü sevmirdi...

**Mən kiməm qınayam öz taleyimi,**
**Mən kiməm Tanrıdan inciyib, küsüm?!**
**Dünyaya gələndən Günəşi sevdim,**
**Dünyadan köçəndə ölüm qismətim.**

**Köçərəm dünyadan – külüm də qalmaz,**
**Bir yaşıl çəməndə ota dönərəm.**
**Məndən nəğmələrim yadigar qalar,**
**Yüz illər ötsə də xalqım unutmaz.**

Platon Oyunski əsərlərində yazdığı kimi etibarlı xalqı onu unutmadı. Bu gün Saxada Platon Oyunskinin adını daşıyan küçə və meydanlar, mədəniyyət və təhsil idarələri var. 1993-cü ildə isə Saxa (Yakutiya) Dövlət başçısının Sərəncamı ilə Ədəbiyyat, incəsənət, memarlıq sahəsində uğur qazananlara Platon Oyunskinin adına dövlət ödülü təsis edilib.




Saxa Yakutiya Respublikasının paytaxtı Yakutsk şəhərindəki Hava limanı da Platon Oyunskinin adını daşıyır.

Bütün bunlardan sonra kim deyə bilər ki, xalqın yaddaşını silmək olar? Tarix xalqla, xalq tarixi ilə yaşayır!

***P.S:*** **Platon Oyunskinin “Qırmızı şaman” əsərini ilk dəfə Azərbaycan dilinə mən uyğunlaşdırmışam. Bu, Saxa Yakutiya Respublikasında böyük hadisə kimi qeyd olunub.**